AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

SƏRƏNCAM

“Tikinti layihələrinin həyata keçirilməsi sahəsində inzibati prosedurların təkmilləşdirilməsi və bu sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Komissiyanın yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 oktyabr tarixli 1279 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə

“Tikinti layihələrinin həyata keçirilməsi sahəsində inzibati prosedurların təkmilləşdirilməsi və bu sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Komissiya”nın yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 oktyabr tarixli 1279 nömrəli Sərəncamının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə:

1. “Tikinti layihələrinin həyata keçirilməsi sahəsində inzibati prosedurların təkmilləşdirilməsi və bu sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Komissiyanın yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 oktyabr tarixli 1279 nömrəli Sərəncamı (bundan sonra – Sərəncam) ilə yaradılmış Tikinti Layihələri üzrə Koordinasiya Komissiyasının (bundan sonra – Komissiya) Katibliyinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatına həvalə edilmiş funksiyasının icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Regionların inkişafı şöbəsinə tapşırılsın.

2. Müəyyən edilsin ki, Komissiyanın Katibliyi Komissiyanın cari fəaliyyətini təşkil edir, Komissiyaya təqdim olunan təkliflərin, layihələrin hazırlanmasında, müzakirəsində iştirak edir və Komissiya sədrinin digər tapşırıqlarını yerinə yetirir.

3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Sərəncamın 3.1-ci bəndinin icrası ilə bağlı:

3.1. monitorinqi və qiymətləndirməni təmin etmək məqsədilə operatoru olduğu “e-monitorinq” portalında “Layihə idarəetməsi” Modulunun təkmilləşdirilməsini təmin etsin;

3.2. monitorinqin və qiymətləndirmənin nəticəsi barədə məlumatları ayda bir dəfə, hər növbəti ayın 15-dək Komissiyaya təqdim etsin;

3.3. monitorinqin və qiymətləndirmənin nəticəsi barədə illik hesabatı hər növbəti il yanvarın 25-dək Komissiyaya təqdim etsin.

4. Dövlət vəsaiti hesabına maliyyələşdirilən tikinti layihələrinin sifarişçi qurumları monitorinqin və qiymətləndirmənin həyata keçirilməsi məqsədilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim edilməsi üçün dövlət vəsaiti hesabına maliyyələşdirilən tikinti layihələrinin icrasına dair müvafiq məlumatların tikinti layihələri ilə

bağlı razılaşdırma, icazə və digər inzibati prosedurlar üzrə normativ hüquqi aktların tələblərinə uyğun olaraq “Layihə idarəetməsi” Moduluna 2027-ci ildən etibarən ayda bir dəfə, hər növbəti ayın 5-dək, illik məlumatların isə hər növbəti il yanvarın 10-dək yerləşdirilməsini təmin etsinlər.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 29 ” “ oktyabr ” 2026-cı il

№ 810s